UOT-811.521.1
Səhifə: 187-191
https://doi.org/10.59849/2663-8967.2026.2.187

Nərgiz Rüstəmova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
nergiz.rustemova.87@mail.ru

AQRESSİYA TƏZAHÜRÜ OLAN PARALİNQVİSTİK VASİTƏLƏRİN MƏCAZLAŞMA POTENSİALI HAQQINDA
(Müasir türk və Azərbaycan dillərindəki frazeologizmlərinə əsasən)

XÜLASƏ

Məqalədə aqressiyanı ifadə edən bədən dil elementlərinin məcazlaşması əsasında törəmiş frazeoloji vahidlər tədqiq olunur. Məlum olur ki, bədən dili elementləri, yəni paraliqnvistik vasitələr insanın emosional durumunu tam əyaniliklə nümayiş etdirmək potensialına malikdir. Bu səbəbdən də, bədən dili elementlərinin bəzilərinin müvafiq emosional durumun səciyyələnməsi üçün istifadə edilməsi halları, demək olar ki, universal xarakter daşıyan məcazlaşmalara yol açdığı danılmazdır. Bədən dili elementlərinin hətta verbal izah, sözlü müşayiət olmadan bu və ya digər emosiyanı (sevinc, qəzəb, qorxu və s.) ifadə edə bilməsi onların verbal xarakteristikasının (daha sonradan) elə həmin emosiyanın bu və ya digər çalarlarının səciyyələndirilməsi üçün istifadəsinə yol açmışdır. Bu halların semantik universallıq olması gerçəkliyi, onların türk dillərində də geniş şəkildə təzahür etdiyinə şübhə yeri qoymur. Bu baxımdan Azərbaycan dili və müasir türk dili materiallarının müqayisəli təhlili maraqlı dil faktlarının təsbitinə, onların fərqli diskursiv ortamlardakı işləklik potensialına aydınlıq gətirmək imkanı qazandırır. Məqalədə ayaq somatizmi ilə bağlı olan və verbal aqressiyanın ifadəsinə xidmət edən paralinqvistik mahiyyətli frazeologizmlər araşdırılır.

***Açar sözlər**: Azərbaycan dili, türk dili, paralinqvistika, frazeologiya, aqressiya, məcazlaşma.*

Giriş: Məlumdur ki, paralinqvistik vasitələr birbaşa şəkildə insan beyninin qədim qatlarından sayılan limbik sistem tərəfindən idarə olunduğundan, onların (bədən dili elementlərinin) insanın emosional tutumunu ifadə etmək potensialı xüsusilə zəngindir. Əgər nəzərə alsaq ki, beynin limbik sistemi onun ən gənc qatı olan neokortekstdən fərqli olaraq, zəka göstəriciləri ilə, intellektual imkanlarla yönləndirilə bilmir. Limbik sistem sırf hiss ediləni olduğu kimi bədən dilinə sirayət etdirə bilir ki, bu da bədən dilinin, demək olar ki, yalan danışmaq imkanından məhrum olması inancını ortaya çıxartmışdır. Bu mənada bədən dili elementləri sırasında fərqli insan emosiyalarını əks etdirən paralinqvistik mahiyyətli frazeologizmlər xüsusi maraq doğurur. Bu mənada əminliklə demək olar ki, bütün təməl insan emosiyaları bədən dili vasitələri ilə ifadə tapır ki, bu da müvafiq konseptual bölgünün aparılmasına imkan yaradır.

Limbik sistem mahiyyət etibarı ilə insanın real emosional durumunun ötürücüsü kimi ortaya çıxır. Limbik sistem həm insan emosiyalarının yaranma mənbəyi, əsas qaynağı (yəni, məcazi anlamda: generatoru) kimi çıxış edir, həm də onların ifadə formalarının gerçəkləşməsini tənzimləyir [15, s.106]. Bu tənzimləmə səs tembrində (uca və ya alçaq səs tonu, titrək səs və ya sabit səs tembri), habelə bədən dili elementlərində: bu və ya digər emosiyanın yaşanması zamanı reflektor olaraq ortaya çıxan bədən dili əks-reaksiyalarında özünü büruzə verir. Bu kimi halların universal səciyyə daşıması təkcə paraliqnvistik tədqiqatlar əsnasında ortaya çıxmamışdır. İnsan emosiyalarının ifadəsi zamanı bədən dili reaksiyalarının meymunlarla müqayisəsini müqayisəli şəkildə araşdırmış Ç.Darvin [5], daha sonrakı nəsil tədqiqatçılarından M.Benedeka, Ç.Kernbax [3,

s.320-329] və bir çox başqaları bunun fizioloji ortaqlıq məqamlarını sübuta yetirməyə müvəffəq olmuşlar.

Məlumdur ki, beyin quruluşunun özəllikləri həm insanın kənar informasiyanı emal etməsi formatını tənzimləyir, həm də qəbul etdiyi informasiyaya uyğun yaranan emosional fonun ifadəsinə ciddi şəkildə təsir edir. [18]. Bu mənada bədən dili elementləri sadəcə olaraq, əl-qol hərəkətləri olmayıb boyun bir emossional stress yükünün (müsbət və ya mənfi stressin, yəni, istər sevinc, sevgi, istərsə də qəzəb, nifrətin) ifadəsi olduğu birmənalı şəkildə təsbit edilmişdir. Bu mənada təsadüfi deyil ki, bir sıra emosional konseptlərin tədqiqi çərçivəsində dilçilər (məsələn, S.Rzayeva) [14, s.51-59]. mütləq şəkildə paralinqvistik vasitələrin təsir imkanlarını dəyərləndirmiş, onların (paralinqvistik vasitələrin) dilin frazeoloji inventarına sirayət etmə səviyyəsini əlaqəli şəkildə araşdırmışlar. Bu qəbildən frazeoloji vahidlər sırasında aqressiyanı ifadə edən və müvafiq olaraq, Qəzəb, Nifrət konseptlərinə daxil olan, qismən Təəccüb, Qorxu, Təhdid konseptlərinin semantik sahələrinə aid edilə bilən frazeoloji vahidlər xüsusi maraq doğurur. İstənilən halda haqqında bəhs edəcəyimiz qrup frazeologizmlərin ortaq cəhəti ondan ibarətdir ki, onlar istər eksplisit (aşkar), istərsə də implisit (gizli) şəkildə aqressiyanının məcazi ifadəsinə xidmət edirlər. Nümunələrə diqqət edək: " *...necə əsəbiləşdimsə, saçından yapışıb saldım ayağımın altına*" [7]; "*Ərimə yazan qızı ayağımın altına salaram*" [6]. Birinci halda biz, icra edilən aqressiyanın olduğu kimi təsvirinə xidmət edən frazeoloji vahidlə qarşılaşırıq. Bu zaman təqdim olunmuş ayaqlarının altına salmaq – frazeologizmi bilavasitə döymək, fiziki güc tətbiq etmək anlamında istifadə olunmuşdur. İkinci hala isə biz, (kontekstdə çıxış edərək deyə bilərik ki) verbal aqressiya faktı ilə qarşılaşırıq və bu kontekstdə hələ icra olunmamış aqressiya ilə bağlı təhdid, xəbərdarlıq ifadə edilir.

Bu ifadənin bədii diskursda da geniş işlədildiyini qeyd edə bilərik. Məsələn, S.Rəhimovun romanlarında birində oxuyuruq: "*Demək, sən Çaqqal ...şah tacını götürüb ayaqlar altına almısan*?" [13, s.247].

Lakin eləcə də dilimizdə sırf məcazı anlamda istifadə edilən və frazeoloji lüğətimizin təqdim etdiyi məlumata görə [2], hörmətdən, dəyərdən salmaq, nüfuzuna xələl gətirmək anlamlarında işlədilən kontekstləri də təsbit edə bilərik.

Media diskursunda həmin frazeologizmin istifadə mövqelərinə diqqət edək: "*Başıaçıq dolaşan qadınların namusu ayaqlar altında qalıb*?" [11]; "*bağışlasam, qızımın namusunu ayaqlar altına atmış olaram*". [8]. Göründüyü kimi, burada ayaqlar altında qalması (məcazi anlamda) ehtimal edilən nəsnənin bir növ dəyərsizləşə biləcəyi, hörmətdən düşə biləcəyi qorxusu dilə gətirilir.

Bədii-publisistik üslubda geniş şəkildə istifadə edilir. Məsələn, Ö.Nemanzadənin XX əsrin əvvəllərində - 1903-cü ildə, qələmə aldığı məqalələrdən birində oxuyuruq: "*...namusumuz ayaqlar altına alınır, alçaqlığımız yerin dibinə keçir*" [12,s. 27].

Müasir şairlərdən Ş.Şadimanın şeirində oxuyuruq: "*Sənin haqqını ayaqlar altına atanlarını tanı*" (Ş.Kərimbyli-Şadiman) [10, s.127].

Mədəniyyət kodlarında *ayaq* semantik kodunun ifadə etdiyi məna spektrlərini araşdırmış İ.Zaxarenkonun da qeyd etdiyi kimi, ayaqların altına atılmaq, ayaqların altına almaq və s. bu qəbildən ifadələr üstünlüyün simvolistik ifadəsinə xidmət edir. Dilçiyə görə, bədənin ən axırıncı, ən aşağı mövqeli üzvü, orqanı sayılan ayaqların altına alınmaqla, ayaqların səviyyəsinə düşməklə icra edilən jestlər qarşı tərəfin (məğlub tərəfin) məhkum, məzlum, tabe və təbə mövqeyinin vurğulanması üçün istifadə edilir. [16,s.87]. Ayaqla bağlı frazeoloji vahidlərin *diz* somatizmi ilə əlaqədar olan paralinqvistik ifadələrlə qarşılaşdırması onu deməyə əsas verir ki, qarşı tərəf üzərində hegemonluğun təsbiti baxımından, birincilər (ayaq somatizminin yer aldığı paralinqvistik frazeologizmlər) daha intensiv, daha aqressiv mahiyyətli semantika ilə yüklənmişdir. Bu da ehtimal ki, İ.Zaxarenkonun qeyd etdiyi məqamla – ayağın ən aşağı bədən üzvü olması ilə şərtlənir. Məhz, ən aşağı bədən üzvündən də aşağı salınan, daha aşağıda nəzərdə tutulan məğlub tərəf, ifşa edilən tərəf, cəzalandırılan tərəf daha ağır formalı verbal aqressiyadan öz nəsibini, öz payını alır. Nümunələr diqqət edək:

"*Erdoğan; "Ben Mardin'de dedim ki, biz bütün milliyetçiliği ayaklar altına almış iktidarız*". [4]; "*Hizbullah İsrail'in askeri doktrinini nasıl* ***ayaklarının altına aldı***?" [9]. Verilmiş kontektlərdən də aydın göründüyü kimi, hər iki halda qarşı tərəfin maraqlarının, dəyərlərinin heçə sayılması aşkar şəkildə bəyan edilir. Özü də burada nümayişkaranə ifadə tapan aqressiya qarşı tərəfin heçə sayılmasını daha da qabardır. Türk dilində (müvafiq lüğətlərdə təsbit edildiyi kimi) ayaklar altına almak ifadəsi önəm verilməsi, dəyərli tutulması vacib olan bir şeyi, dəyəri nümayişkaranə şəkildə saymamaq, dəyərini heçə endirmək, tapdalayıb üstündən keçmək mənalarında işlədilir. [1]. Heç şübhəsiz ki, bu frazeologizm real olaraq mövcud olan paralinqvistik elementin – ayaqlar altına salınmaq tapdalanmaq, döyəcləmək, itələmək və s. kimi aqressiv bədən dili vahidinin məcazlaşması əsasında meydana gəlmişdir. Təkcə onu xatırlatmaq kifayətdir ki, məğlub edilmiş hərbi qüvvələrin bayraqlarının, hərbi simvolistik mahiyyətli əşyalarının ayaqlar altına alınıb nümayişkaranə şəkildə tapdalanması kimi davranış demək olar ki, tarixin ən qədim çağlarından məlum olan universal ritual jestlərdən sayıla bilər [16, s.89]. (məsələn, 1945-ci il hərbi paradında olduğu kimi) [17].

Nəticə: Təhlillər əsnasında məlum olur ki, aqressiyanın fiziki ifadəsinin təsviri kimi çıxış edən frazeoloji vahidlər sonrakı mərhələdə məcazlaşmaya məruz qalırlar və bu səbəbdən də, onlar bilavasitə həmin aqressiv davranışın təsvirindən kənarlaşaraq, müəyyən situativ, kontekstual mahiyyətli qəzəbin, kinin, təhdidin, etiraz dolu sitəmli aqressiyanın ifadəsində istifadə edilirlər.

Ədəbiyyat siyahısı

1. Ayaklar altına atmak // Güncel Türkçe Sözlük https://sozluk.gov.tr/?aranan=ayaklar+alt%C4%B1na+almak
2. Ayaq altına salmaq // Azərbaycan dilinin frazeologiya lügəti, Bakı, Altun kitab, 2015, https://azleks.az/online-dictionary/ayaq+alt%C4%B1na+salmaq/?s=3
3. Benedeka M., Kaernbach Ch. Physiological correlates and emotional specificity of human piloerection // Biological Psychology. 2011 Mar; 86(3): 320–329. https://www.ncbi.nlm.nih.gov/pmc/articles/PMC3061318/
4. Cengiz, M. Milletin çeşitliliği ve yeni anayasaya dair… // Kayseri Gerçek Haber, 15.09.2023 https://kayserigercekhaber.com/kose-yazilari/milletin_cesitliligi_ve_yeni_anayasaya_dair-3633.html
5. Darwin C. The Expression of the Emotions in Man and Animals., London: John Murray, Albemarle Street., 1872. 399 pp. https://pure.mpg.de/rest/items/item_2309885/component/file_2309884/content
6. Ərimə yazan qızı ayağımın altına salaram // Qafqazinfo.az, 20 may, 2019 https://qafqazinfo.az/news/detail/erime-yazan-qizi-ayagimin-altina-salaram-252749
7. Əvvəl qızını, sonra dizini döyənlər... // Qafqazinfo.az., 3 iyun, 2017 https://qafqazinfo.az/news/detail/evvel-qizini-sonra-dizini-doyenler-187394
8. Faiq Ağayevi bağışlasam, qızımın namusunu ayaqlar altına atmış olaram // Milli.az, 28 iyul, 2010 https://news.milli.az/showbiz/17592.html
9. İşgalcilerin Çığlığı/İsrail'in Askeri Doktrini Hizbullah'ın Ayaklarının Altında // Tasnim News Agency, 05 Kasım, 2024 https://www.tasnimnews. com/tr/news /2024/11/05/3194278/i%C5%9Fgalcilerin-%C3%A7%C4%B1%C4%9Fl%C4%B1%C4% 9F%C4%B1-israil-in-askeri-doktrini-hizbullah-%C4%B1n-ayaklar%C4%B1n%C4%B1n-alt%C4% B1nda
10. Kərimbəyli-Şadiman, Ş. Vətən səndən nə qaldı, Bakı, 2022, https://kitabxana.net/files/books/file/1715200816.pdf
11. Mirzəyev, F. "Hicab namusumuzdur" qışqıranlar haqda // Kulis.az, 10 oktyabr 2012 https://kulis.az/xeber/yazarlar/xeber-2726
12. Nemanzadə, Ö.F. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2006, 352 s.
13. Rəhimov, S. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı, "Şərq-Qərb", 2005, 288 s.; s.247

14. Rzayeva, S.M. “Təəccüb/heyrət” və “qorxu” mikrokonseptlərinə daxil olan leksik vahidlərin semantikasi // Filologiya məsələləri, № 2, 2022, s. 51-59 https:// filologiyameseleleri. com/pdf/2022/2.pdf
15. Tağıyeva, Z. Beynin limbik sistemi insan emosiyalarının idarəetmə mərkəzi kimi // ADU Elmi Xəbərlər, № 3, 2019, s.106-111, https:// www.anl.az/ down/meqale /elmi_xeb_adu/ 2019/03/799200(meqale).pdf
16. Захаренко И. В. «Ноги» в соматическом коде культуры (по данным фразеологии) // Язык. Сознание. Коммуникация. Вып. 23. – Москва: МАКС Пресс, 2003. – С. 86 – 96. https://www.philol.msu.ru/~slavphil/books/jsk_25_05zacharenko.pdf
17. Колдин, С. Парад победителей // 10 июля 2025 https://armystandard.ru/ news/ 2025710939-A91X8.html
18. Фрит, К. Мозг и душа. Как нервная деятельность формирует наш внутренний мир. Серия «Элементы», 2012 г. https://www.litres.ru/book/kris-frit/mozg-i-dusha-kak-nervnaya-deyatelnost-formiruet-nash-vnutrenniy-6649587/chitat-onlayn/

Н.Рустамова

О метафорическом потенциале паралингвистических средств, выражающих агрессию (на материале фразеологизмов современных турецкого и азербайджанского языков)

Резюме

В статье исследуются фразеологические единицы, образованные от метафорического использования элементов языка тела, выражающих агрессию. Выясняется, что элементы языка тела, то есть паралингвистические средства, обладают потенциалом для наиболее полной демонстрации эмоционального состояния человека. Поэтому неоспоримо, что использование некоторых элементов языка тела для характеристики соответствующего эмоционального состояния приводит к появлению метафор практически универсального характера. Тот факт, что элементы языка тела могут выражать ту или иную эмоцию (радость, гнев, страх и т. д.) даже без словесного пояснения или словесного сопровождения, проложил путь к использованию их вербальных характеристик (впоследствии) для характеристики того или иного оттенка одной и той же эмоции. Семантическая универсальность этих случаев не оставляет сомнений в их широкой распространенности и в тюркских языках. В этой связи сопоставительный анализ материалов азербайджанского и современного турецкого языков дает возможность выявить интересные языковые факты и выяснить потенциал их использования в различных дискурсивных средах. В статье рассматриваются фразеологизмы паралингвистического характера, относящиеся к соматизму стопы и служащие для выражения вербальной агрессии.

Ключевые слова: *азербайджанский язык, турецкий язык, паралингвистика, фразеология, агрессия, метафоризация.*

N.Rustamova

On the metaphorical potential of paralinguistic means expressing aggression (based on phraseological units of modern Turkish and Azerbaijani languages)

Summary

The article examines phraseological units formed from the metaphorical use of body language elements expressing aggression. It turns out that body language elements, i.e. paralinguistic means, have the potential to most fully demonstrate a person's emotional state. Therefore, it is undeniable that the use of some body language elements to characterize the corresponding emotional state leads to the emergence of metaphors of a virtually universal nature.

The fact that body language elements can express a particular emotion (joy, anger, fear, etc.) even without verbal explanation or verbal accompaniment paved the way for the use of their verbal characteristics (subsequently) to characterize a particular shade of the same emotion. The semantic universality of these cases leaves no doubt about their widespread use in the Turkic languages. In this regard, a comparative analysis of materials from the Azerbaijani and modern Turkish languages makes it possible to identify interesting linguistic facts and to determine the potential for their use in various discursive environments. The article examines paralinguistic phraseological units related to foot somatism and used to express verbal aggression.

***Key words**: Azerbaijani language, Turkish language, paralinguistics, phraseology, aggression, metaphorization.*

Çapa tövsiyə edən: ***Azərbaycan Dövlət Pedaqoji Universitet***

Rəyçilər: ***fil.e.d.,dosent Ş.Həsənli-Qəribova***
fil.e.d.,dosent Q.Quliyeva